# Gənclərin sosiallaşmasının sosial meyarları və dəyərlərinin tipologiyası

**Mehriban Cəlal qızı İsmayılova**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
**E-mail:** mehriban_ismayilova_1962@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos.U.M. Qəzvini,
psixol.ü.f.d., dos.N.T. Rzayeva

**Açar sözlər:** sosiallaşma, sosiallaşma prosesi, özünütəyin, dəyər, yönəlişlik
**Ключевые слова:** социализированность, процес социализация, самоопредение, ценности, ориентация
**Key words:** socialization, socialization process, self-determination, values, orientation

Müasir dövrdə respublikamızda sosiallaşmanın meyarları demək olar ki, işlənilməmişdir. Sosiallaşmanın meyarları dedikdə, obyektiv olaraq məqsədəmüvafiq nəticələr nəzərdə tutulur. Bu meyarlar sosiallaşmanın hipotetik məqsədini əks etdirməlidir. B.Q.Ananyev sosiallaşma hadisələrinin psixoloji-pedaqoji effektləri qismində onu təsdiq edənləri: sosial yönəlişliyi, fəaliyyətin mürəkkəb hadisələrinin motivasiyasını, xarakterin müvafiq sosial-tipik və milli-tipik əlamətlərinin formalaşmasını nəzərdə tuturdu (1).

M.İ.Rojkovanın fikrincə, şəxsiyyətin sistemləşdirilmiş obrazlı keyfiyyətlərinə: şəxsiyyətin fəallığı, adaptasiyası və davamlılığı aiddir ki, onlar şəxsiyyətin sosiallaşmanı təsdiq edir (4). Q.S.Zborovskiy mütəxəssisin həyati özünütəyininin dərəcəsini (istehsalat, sosial, ailə, mənəvi) şəxsiyyətin təşəkkülünün meyarları kimi nəzərdən keçirir. O, fərdi proses kimi buraya şəxsiyyətin seçimini, azadlığını və məsuliyyətini aid edir. Alim tədqiqatçı həmçinin istehsalatda və ondan kənar birgə fəaliyyətdə gündəlik və müntəzəm olaraq münasibətlər sistemini də şəxsiyyətin sosiallaşmasının meyarlarına daxil etmişdir (2).

A.İ.Kovaleva şəxsiyyətin sosiallaşmasının meyarları qismində aşağıdakıları fərqləndirmişdir: 1) yönəlişliyin, stereotiplərin, "insan aləminin mənzərəsi"nin, dəyərlərin formalaşmasının məzmunu; 2) davranış normalarına uyğun şəxsiyyətin adaptasiyası; 3) sosial identiklik (4).

Müasir gənclərin sosial fəallığının dərəcəsi onların münasibətlər dairəsinin nə qədər geniş olmasından, həyati təsəvvürlərinin təsdiqinə və sosial fəaliyyətə hansı səviyyədə cəhd göstərmələrindən çox asılıdır. Müasir dövrdə sosiallaşmanın meyarlarından danışarkən inkişafın stabilliyi üçün sosial keyfiyyətlərin: şüurluluğun, sosial məsuliyyətliliyin və tolerantlığın olması zəruridir. Gənclərin sosiallaşması dedikdə, onların cəmiyyətdə və yaşadıqları ailədə bütün baş verən hadisələrə şüurlu və məsuliyyətli yanaşması başa düşülür. Müvafiq şəraitdə gənclərin analitik modelinə növbəti keyfiyyətlər daxil edilir:

- eksperimentlərə, innovasiyalara və dəyişikliklərə açıqlıq;
- fikir və rəylərdə ziddiyyətlərə daima hazır olmaq;
- indiki və gələcək vəziyyətə bələdləşmə, vaxta qənaət, dəqiqlik;
- özünəgüvənlilik, gəncin öz həyatını qurmaqda qarşılaşdığı çətinlikləri aradan qaldırmağa qadir olması;

- istər cəmiyyətdə, istərsə də şəxsi həyatında gəncin öz məqsədlərinə çatması üçün gələcək fəaliyyətini planlaşdırması;
- formal təhsil və təlimin yüksək dəyərləndirilməsi;
- aşağı statuslu insanların ləyaqətinə hörmətlə yanaşması (3).

Gənclərin analitik modeli arzu olunan obraz kimi müəyyən sosial konstruktları nəzərdən keçirtməyə yönəldilmişdir. Analitik modelə şəxsiyyətin inkişaf xüsusiyyətləri də aiddir ki, onlar ictimai gözləmələrin səviyyəsini əks etdirir, həmçinin sistemin qarşılıqlı təsir prosesini və şəxsiyyətin sosiallaşmasının gedişində onun təşkili səviyyəsini xarakterizə edir.

A.İ.Kovalevanın konsepsiyasında "sosiallaşmış normalar" adı altında sosiallaşma prosesinin mexanizmləri və nəticələri nəzərdən keçirilir. Sosiallaşmış normalar cəmiyyətdə fərdin sosial mexanizmlərə və şəxsiyyətin tam bərabərhüquqlu inkişafa, o cümlədən onun fərdi, sosial-tipik və əhəmiyyətli sosial keyfiyyətlərə yiyələnməsi ilə müəyyən edilə bilər. Sosiallaşmış normalar cəmiyyətdə şəxsiyyətin yaş və fərdi psixoloji xarakteristikaları və fərdin şəxsi inkişafı ilə şərtlənir. Bu normalar müvafiq cəmiyyətin sosial parametrləri ilə səciyyələnir (4).

Sosiallaşmış normaların fəaliyyətinin öyrənilməsində cəmiyyətdə sosial konstruktun funksionallaşmış üç səviyyəsini fərqləndirirlər: *birincisi,* fərdin sosiallaşma normalarıdır ki, onlar bioloji və sosial amillərlə şərtləndirilir; *ikincisi,* sosial qruplar üçün normalardır ki, onlar fərdin konkret xüsusiyyətlərinin, tipik keyfiyyətlərinin məcmusu kimi determinləşir; *üçüncüsü,* ümumi sosial normalardır ki, onlar cəmiyyətin inkişafını əks etdirən sosiallaşma mexanizmləri və dəyərləri, o cümlədən ictimai ideal və sosiallığın parametrləridir. Şəxsiyyətin proyektiv modelinə görə, cəmiyyətdə sosiallaşan gənc növbəti keyfiyyətlərə yiyələnməlidir:

1) Sosiallaşmış gənc həyat şəraitinin dəyişikliklərinə tez uyğunlaşmalıdır, sosial-psixoloji şəraitlərə bələdləşməyi, sosial mövqeyini, habelə humanist ideal və dəyərlərini qorumağı bacarmalıdır; 2) Gənc yüksək sosial fəallığa, müəyyən məqsədə doğru yönəlməyə, yeni axtarışlara cəhd etməyə nail olmalıdır. Bunlarla yanaşı o qeyri-standart situasiyalarda həyati problemlərin optimal həlli yollarını axtarmağa qadir olmalıdır; 3) Sosiallaşmış gənc həyatda uğurlara nail olmaq, müstəqil olaraq məsələləri yerinə yetirmək, öz intellektini və peşə keyfiyyətlərini inkişaf etdirmək tələbatlarına malik olmalıdır; 4) Gənc fərdi yönəlişliyə, maraq və tələbatlarını özünə istiqamətləndirməyə ağıllı və şüurlu şəkildə nail olmalıdır. Bunlarla yanaşı o rasional və alternativ təfəkkürə, həyatda proqmatik münasibətlərə yiyələnməlidir. Müasir gənc sosial statusunun və məxsus olduğu sosial birliyin keyfiyyətlərini, habelə özünün yaş və peşə maraqlarını müdafiə etməyə həmişə hazır olmalıdır (5).

Y.P.Xayrulina fərdlərin sosiallaşma prosesinin nəticələrini və göstəricilərini üfiqi və şaquli olmaqla müəyyənləşdirmişdir. *Üfiqi sosiallaşmaya* sosial keyfiyyətlərin bütün növlərinin, sosial dəyərlərin, normaların, ictimai həyatın müxtəlif sferalarında davranış yönəlişliyinin hərtərəfli şəkildə mənimsənilməsinə istiqamətlənmə, həyata bələdləşmə kompleksinin balanslaşdırılmasının mərhələli şəkildə formalaşması, həyati sferalarda sosial və şəxsi dəyərlərin, yönəlişliyin uyğunlaşdırılması, habelə fərdin praktik həyatında bələdləşmənin reallaşmasının tam təmin olunması aiddir. *Şaquli sosiallaşmanın* nəticələri fərdin *sosiallaşmasının* koqnitiv, emosional və davranış səviyyələrinin hər bir mərhələsinin ifadə olunmasında, şəxsiyyətin müvafiq sosial sisteminin bazis tipinin mərhələli şəkildə formalaşmasında öz əksini tapır. *Göstəricilərə:* sosiallaşmanın bütün mərhələlərində şəxsiyyətin bazis tipinə uyğun olan statusunun mövcudluğu və ya olmaması, onların uyğun olan ranqının mövcudluğu və ya olmaması aid edilir (7).

Cəmiyyətdə təhsil funksiyalarının və sosiallaşmanın sosial meyarlarının mövqeyində nəzərdən keçirilir və mütəxəssisin modelində müəyyən edilir. Peşəkarlıq tərəfdən mütəxəssisin

modelinə ixtisaslaşmış tələblər dövlət standartlarının işlənilməsi ilə yanaşı ona aid edilən növbəti xarakteristikanı nəzərdən keçirək:

- *İntellektual səriştəlilik dedikdə,* biliklərin təşkilinin xüsusi tipləri – strukturlaşdırma, kateqoriyalaşdırma və ümumiləşdirmə, situasiyaların təhlilində çeviklik və operativlik başa düşülür ki, o müəyyən fəaliyyətlər sferasında qırarların səmərəli həllinin imkanlarını təmin edir.
- *İntellektual təşəbbüskarlıq* – şəxsiyyətin bütünlükdə xassəsi olub idraki və motivasiyalı cəhdlərin vahidliyini, habelə tapşırılanların arxasınca getməyə hazırlığı göstərir.
- *Özünütəşkiletmə dedikdə,* situasiyanın təhlili, tapşırıqların qoyulması, planlaşdırma, mümkün nəticələrin proqnozlaşdırılması, şəxsi hərəkətlərin nəticələri, özünənəzarət, habelə özünürefleksiya əsasında öz qərarlarını effektiv şəkildə qiymətləndirilmə nəzərdə tutulur.
- *Özünütənzimetmə* - şəxsi intellektual fəaliyyəti sərbəst şəkildə idarə etmək bacarığını, o cümlədən özünüdərk dəyişikliklərini qeydə almaq qabiliyyətini, mədəni özünükorreksiya mexanizmlərindən istifadə etməyi ifadə edir.

Ali məktəblərdə sosiallaşma tələbələrin sosiallaşmasının təhsil, peşə və ictimai səviyyələrində özünü göstərir. Bununla yanaşı müasir tələbələrin sosiallaşmasının əsas göstəriciləri qismində keyfiyyətli xarakteristika, informasiyalı cəmiyyətin sosial xassə və keyfiyyətlərin formalaşması, cəmiyyətin inkişafa tələbatı, dəyişən sosiumda fərdi həyati planların reallaşmasının xüsusiyyətləri öz əksini tapır. Sosiallaşma prosesində sosiallaşan tələbələrin təhsil meyarlarına iki əsas parametr: intellektuallıq və fasiləsiz təhsildə tələbat və vərdişlərin formalaşması aiddir.

Ənənəvi olaraq *intellektuallıq dedikdə,* əqli əməyin müəyyən vərdişləri: dəqiq anlayışlar, təfəkkürün konkretliliyi, həll edilməmiş psixoloji problemlərin aşkarlanması, sualların qoyuluşu və fərziyyələrin irəli sürülməsi, əşya və hadisələr arasında əlaqələrin dərk olunması, psixi proseslərin inkişaf meylləri, o cümlədən mövcud meyllərin mükəmməl təhlili əsasında baş verən hadisələrin inkişafını görmək qabiliyyəti, prosesin kəmiyyət və keyfiyyəti başa düşülür. İntellektuallıq sosiallaşmanın təhsil meyarı kimi dil və metodoloji səriştəlilik və intellektual təşəbbüskarlarının məcmusudur. *Dil səriştəliliyi* – öz fikirlərini aydın şəkildə ifadə və formulə etmək bacarığını, müxtəlif informasiya mənbələri ilə işləmək, habelə ünsiyyətin bu və ya digər mühitində sosiomədəni xüsusiyyətlərə tez informasiya olmağı nəzərdə tutur. *Metodoloji səriştəliliyə* cəmiyyətdə sosial həqiqətləri tənqid və təhlil etmək bacarığı, problem qoymaq, fərziyyə formulə etmək, problemin optimal yollarını yaradıcı şəkildə axtarmaq, refleksivlik, praktiki məsləhətləri və nəticələri formalaşdırmaq və s. daxildir.

İntellektual təşəbbüskarlıq özünədərkə tələbatı və ona hazırlığı nəzərdə tutur. Peşə sosiallaşmasının meyarlarına peşə fəaliyyəti prosesində müəyyən obrazlı şəkildə hərəkət etmək aid edilir. Bu anlayış əməliyyatı göstəricilər qismində tələbələrin aldıqları peşədən məmnunluğunu, peşə hazırlığında özünüqiymətləndirmənin gələcək planlarını, həmçinin öz peşə rollarını yerinə yetirmək üçün zəruri olan şəxsi keyfiyyətlərini müəyyən etməyə imkan verir.

Dəyər şəxsiyyətin fəaliyyətinin mühüm komponentini, onun sosial davranışının normativ əsasını təşkil edir. Dəyər dedikdə, gəncin öz fəaliyyətinin ali tənzimedicisi funksiyasını yerinə yetirən və onun üçün əhəmiyyət kəsb edən hərəkət tərzini seçməsinə sabit yönəlişliyi başa düşülür. Onlar cəmiyyətin inteqrasiyasını təmin edir, şəxsiyyətin və sosial qrupların davranış seçimini, bütünlükdə sosiumu müəyyən edir. Fərdlərin tələbatına görə dəyərlərin tipologiyası aşağıdakı bölgünü nəzərdə tutur:

- *Həyati dəyərlər* insanların ilkin tələbatları ilə bağlı həyatın qorunması və davamı üçün əhəmiyyətli olan dəyərlərdir. *Buraya:* insanın öz şəxsi həyatı ilə bağlı dəyərləri, sağlamlığı, uğurları, ailəsi, qohumlarla münasibəti, təhsili, ixtisası, qayda-qanunları və s. aid edilir.

• *İnteraksional dəyərlər* insanların ünsiyyətində və birgə fəaliyyətində tələbatları ilə bağlıdır. *Buraya:* fərdiləşmə, kollektivçilik, əməksevərlik, sosial nüfuz, qarşılıqlı kömək, xeyirxahlıq, düzgünlük, sadiqlik, dostluq, məhəbbət, özünəinam, intellekt, xarici cazibədarlıq və s. aid edilir.

• *Sosiallaşmış dəyərlər* konkret qruplarda və ya sosiumda qəbul edilmiş davranış nümunələrinin və normalarının mənimsənilməsinə tələbatla bağlıdır. *Buraya:* inam, vətənpərvərlik, beynəlmiləlçilik, ənənələrə və gələcəyə inam, sosial ədalətlilik, optimizm, sosial fəallıq, azadlıq və s. aid edilir.

• *Universal dəyərlər* insanların öz hərəkət və sosial davranışlarını anlamağa tələbatla bağlıdır. *Buraya:* həyatın mənası, xeyir, nifrət, əxlaq, mənəviyyat və s. aiddir. İctimai sosiallaşmanın aktual səviyyəsinə fərdin funksionallaşması üçün zəruri olan sosial keyfiyyət və xassələr daxildir ki, o sosiumu dəyişməklə təhsil sistemini stimullaşdıra bilər. Tələbə gənclərin ictimai sosiallaşmasının aktual səviyyəsinin ümumi meyarlarına cəmiyyət tərəfindən onlara təqdim edilən tələblər sistemini göstərmək olar:

— sosial ədalət prinsipinə riayət etmək;
— dövlətin vətənpərvərlik maraqlarına xidmət göstərmək;
— həyatın dəyişən sosial şəraitinə tez adaptasiya olmaq;
— yüksək sosial fəallıq və bacarıqlılıq nümayiş etdirmək;
— sosiumun və şəxsi həyatın uğurlarına yönəlişlik;
— qayda-qanunlara tabe olmaq;
— hərəkətlərə humanist yanaşma;
— ictimai həyatın demokratik prinsiplərinə riayət etmə.

Həyat qabiliyyətli nəslin konsepsiyasında normativ tələblərin qrupları təqdim edilir ki, o gənclər üçün daha münasibdir:

• həyatın dəyişən şəraitinə tez uyğunlaşma bacarığı, sosial-psixoloji və iqtisadi şəraitə bələdləşmə, dünyagörüşü mövqeyini saxlamaq, humanist ideallara və dəyərlərə nail olmağa səy göstərmə;

• yüksək sosial aktivliyə, yeni baxışlara cəhd, müəyyən məqsədə yönəlmə;

• müstəqil şəkildə qərarların qəbulu və həyati uğurlara tələbat, intellektin daimi özünüinkişafı və peşə keyfiyyətlərinə malik olmaq;

• sosial məsuliyyətlilik, məntiqi fərdi yönəlişlik, vətəndaşın milli özünüdərki, vətənpərvərlik hissinin tərbiyəsi və s.

Azərbaycanda transformasiya şəraitində tələbələrin sosiallaşma meyarları tez-tez dəyişikliklərə məruz qalır, sosial şəraitin dəyişməsinə gənclər tez adaptasiya olur, cəmiyyətdə inteqrasiyanı və stabilliyi müəyyənləşdirirlər. Belə keyfiyyətlərdən biri də *konformluluqdur* ki, ona şəxsiyyətin əsas keyfiyyəti kimi qanuna tabe olma və məsuliyyətlilik daxil edilir. Konformluluğun formalaşması ali təhsilin özünütənzimini istiqamətləndirir. Cəmiyyətin effektiv inkişafının təminatı kontekstində ən mühüm keyfiyyət gənclərdə tolerantlığın olmasıdır.

*Tolerantlıq* sosial birgə fəaliyyətin əsası kimi cəmiyyətin inkişaf mərhələlərinə keçiddə və ya böhranlı vəziyyətlərdə xüsusilə əhəmiyyətlidir. Şəxsiyyətin müvafiq sosial keyfiyyətlərinin formalaşması sosial birgə fəaliyyətin müəllim-tələbə xüsusiyyətlərini, tələbə-təlim qrupunu, o cümlədən tələbələrin elmi tədqiqat işlərini, yataqxana həyatının təşkili xüsusiyyətlərini və s. şərtləndirir. *Buraya:* tələbə özünüidarəsini və əyləncələri də aid etmək olar.

*İntellegentlik* şəxsiyyətin sosial xarakteristikası kimi onun elmi, tənqidi təfəkkürün əsaslarını mənimsəməsi nəzərdə tutulur. İntellegentlik dedikdə, gənclərin refleksivliyinin təminatı, ətrafdakı sosial həqiqətləri adekvat şəkildə qəbul etmələri, baş verən dəyişikliklərə uğurlu

adaptasiyası başa düşülür. Bu keyfiyyətlər gənclərimizə sosial mühitə uğurlu şəkildə adaptasiya olmağa, maksimal olaraq müasir aləmdə özünüreallaşdırmağa imkan verir. *Mobillik* özünütəkmilləşdirməyə daimi hazırlıq kimi həyati situasiyanın tez dəyişilməsinə bələdləşməni təmin edir.

Beləliklə, aparılmış psixoloji təhlillərin nəticələrinin ümumiləşdirilməsi bizə müasir cəmiyyətdə sosiallaşan gənclər üçün sosial meyarlar modelini yaratmağa imkan verdi.

**Məqalənin aktuallığı.** Müasir dövrdə sosiallaşma prosesində sosial meyarların və inkişafın stabilliyi üçün sosial keyfiyyətlərin olmasının zəruriliyi elmi məqalənin aktuallığını bir daha göstərir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə tələbə şəxsiyyətinin proyektiv modelinə əsasən sosiallaşmış gəncin yiyələnməli olduğu analitik modelə uyğun sosial keyfiyyətlər və dəyərlərin tipologiyası müəllif tərəfindən ardıcıllıqla araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ананьев Б.Г.О проблемах современного человека осознания. СПб, 2001.
2. Зборовский Г.Е. Образование: от ХХ к ХХIвеку. Екатеринбург, 1999.
3. Иваненков С.П. Проблемы современной молодежи. Оренбург, 1999.
4. Ковалева А.И. Социализация личности: норма и отклонения. М., 1996.
5. Полутин С.В. Молодежь в системе социального воспроизводства. – Саранск, 2000.
6. Рожков М.И. Подготовка будущих педагогов к реализации социально-педагогических функции в профессиональной деятельности. –Ярославль, 2002.
7. Хайрулина Ю.Р. Социализация личности. Теоретико-методологические подходы: Дис. д-ра социал.наук. Казань, 1998.

**М.Д. Исмаилова**

## Социальные критерии и типология ценностей социализации молодежи

## Резюме

В научной статье рассматриваются социальные критерии социализации современной молодежи с психологической точки зрения. Автор справедливо отмечает, что в современное время, говоря о социальных критериях социализации, для устойчивости развития необходимо наличие социальных качеств: сознательности, социальной ответственности и толерантности. В статье автор последовательно исследует типологию социальных качеств и ценностей в соответствии с аналитической моделью, которую должна усвоить социализированная молодежь на основе проективной модели личности студента.

**M.J. Ismayilova**

## Typology of social criteria and values of socialization of youth

## Summary

The scientific article examines the social criteria of socialization of modern youth from a psychological point of view. The author rightly notes that speaking of the social criteria of socialization in modern times, for the stability of development it is necessary to have social qualities: consciousness, social responsibility and tolerance. In the article, the author consistently examines the typology of social qualities and values in accordance with the analytical model that should be mastered by a socialized youth based on the projective model of student personality.

**Redaksiyaya daxil olub:** 13.10.2020